**Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsin"də, 1994-cü il 23 sentyabr tarixli 887 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə, 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də, "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Gənclər siyasəti haqqında" və "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 205-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 133, № 5, maddə 312; 2007, № 8, maddə 754, № 11, maddə 1078; 2008, № 8, maddə 709; 2010, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2012, № 5, maddə 408; 2014, № 2, maddə 86; 2016, № 1, maddə 6; 2017, № 3, maddə 327; 2018, № 1, maddə 8, № 10, maddə 1968; 2019, № 2, maddələr 180, 181) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 333.4-cü maddədə "Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni və" sözləri "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı və ya "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş, eləcə də Azərbaycan Respublikasının "Zəfər" ordeni, "Qarabağ" ordeni, "Şöhrət" ordeni və ya" sözləri ilə əvəz edilsin;

1.2. 349.2-ci maddədə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı və ya Azərbaycan Respublikasının" sözləri "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı və ya "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş, eləcə də Azərbaycan Respublikasının "Zəfər" ordeni, "Qarabağ" ordeni və ya" sözləri ilə, "olunmuş" sözü "edilmiş həqiqi hərbi xidmətdən" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 312, № 6, maddə 415; 2007, № 8, maddə 754; 2008, № 8, maddə 709; 2010, № 4, maddə 274, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 9; 2018, № 1, maddə 9, № 10, maddə 1967) ilə təsdiq edilmiş "Azərbaycan